Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Padşah Davud (1-ci Hissə)

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Gənc Davud qaçışda idi.  Padşah Şaul onu öldürmək istəyirdi.  Davud dörd yüz ardıcılı ilə çöllükdə böyük bir mağaranın ...



... içində yaşayırdı. Bir dəfə padşah Şaulun əsgərləri az qala onu tapmışdılar. Ancaq Davud yerini dəyişdi.



Şaulun qulu Doeq padşaha dedi ki, kahinlər Davudun qaçmasında ona kömək ediblər.  Şaul onları öldürməyi əmr etdi. Ancaq bunu yalnız Doeq etməyə hazır idi!  O vəhşicəsinə səksən beş kahini və onların ailələrini qılıncla öldürdü.  Bu, çox böyük pislik idi.





Bir gün
Şaul Davudun
axtarışında idi,
Davud və onun
adamlarının
gizləndiyi
mağaraya
girdi.  Şaul
tək idi!


Mağarada Davud asanlıqla Şaulu öldürə bilərdi.
Əksinə, o gizlicə yaxınlaşdı və Şaulun paltarının ucunu iti xəncəri ilə kəsdi.


Şaul gedəndə Davud onu çağırdı. “İçəridə mən sənin
paltarının ucunu kəsdim və səni öldürmədim, bil və gör ki, mənim əlimdə nə şər və nə də ki, qiyam var…”

Şaul Davuda xətər yetirməyə çalışdığına görə peşman olduğunu dedi.  Ancaq tezliklə onun keçmiş qəzəbi qayıtdı və o, Davudu öldürmək üçün üç min nəfərlik ordu düzəltdi.  Bir gecə, ordu yatarkən, Davud və onun əsgərlərindən Avişay adlı biri Şaul padşahın yatdığı düşərgəyə yavaşca girdilər.





Avişay pıçıldadı: “Allah bu gün düşmənini sənə təslim etdi.  İndi isə qoy nizə ilə onu birdəfəlik yerə elə yapışdırım ki, ikinci dəfə vurmağa ehtiyac olmasın”.



Davud imtina etdi. Şaulun nizəsini və su qabını götürdü, düşərgəni tərk etdi. Qarşı tərəfə keçib Davud Şaul eşidənə qədər qışqırdı.  Şaul bir daha gördü ki, Davud onu öldürə bilərdi, amma öldürmədi.





Bir daha Şaul Davuda xətər yetirməyə çalışdığına görə peşman olduğunu dedi. Ancaq Davud bilirdi ki, Şaulun sözlərinə etibar edə bilməz.



Şamuel artıq ölmüşdü. O, Allahın ilk öncə Şaulu, sonra da Davudu İsrailin padşahı kimi məsh etməsini dediyi peyğəmbər idi.  Filiştlilər İsrailə hücum edəndə Şaul Allahın qadağan etdiyi dəhşətli bir şey etdi.

O, baxıcı qadına əmr etdi ki, Şamueli ölülərdən çağırsın.  Həmin gecə Şaul xəbər aldı.



"… Rəbb səni tərk etdi və sənin düşmənin oldu… Rəbb padşahlığı sənin əlindən aldı və Davud adlı yaxınına verdi. Sabah sən və sənin oğulların mənimlə olacaqsınız. Rəbb, həmçinin İsrail ordusunu Filiştlilərin əllərinə təslim edəcək". Şaul bunu eşidəndə qorxu içində titrədi.



Filiştlilər İsrailə qarşı vuruşdular və İsraillilər qaçdılar.  Filiştlilər Davudun yaxın dostu Yonatan da daxil olmaqla, Şaulun oğullarını öldürdülər.



Şaul oxatanlardan çox şiddətli yaralanmışdı. O, öz silahdarına dedi: “Qılıncını çək, məni vur, yoxsa bu sünnətsizlər gəlib qılınclarını mənə batıraraq əylənəcəklər”.



Ancaq onun silahdarı qorxduğundan bunu etmək istəmədi.  Ona görə də Şaul qılıncını götürüb özünü onun üstünə yıxdı.





Şaulun və onun oğullarının meyitini taparaq, Filiştlilər cəsədləri əsir tutduqları İsrail şəhərinin divarına mıxladılar.



Bəzi cəsur İsraillilər cəsədləri xilas etdilər, onları evə götürdülər və qalıqları İsraildə basdırmazdan əvvəl onları yandırdılar.



Davud bu sarsıdıcı xəbəri eşidəndə yas tutdu, ağladı və Şaul, onun oğlu Yonatan və Rəbbin xalqı üçün axşama qədər oruc tutdu, çünki onlar qılıncdan ölmüşdülər.

Şaulun Davudu öldürməyə çalışdığına baxmayaraq, Davud sona qədər Allahın məsh edilmişi kimi Şaula ehtiram göstərdi.



İndi Allah Davudu Şaulun yerinə padşah edərək, onu izzətləndirdi.



# Padşah Davud (1-ci Hissə)

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Şamuel 24-31, 2 Şamuel 1-2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**